

# Buta Airways

Yay | 2021
№12

## Xarıbülbül
mətanət və
azadlıq rəmzi

## Azərbaycanın
Böyük Qələbəsi!

## Əziz Şuşa,
sən azadsan!

## Zamanın qoruyucusu
İzmir

Buta Airways №12

Bort Jurnalı | Yay 2021

Rəqəmsal versiya




**Layihə rəhbəri**
*Eldar Hacıyev*

**Aviaşirkətin direktoru**
*Nazim Səmədov*

**Baş redaktor**
*Paşa Kəsəmənski*

**Baş redaktorun müavini**
*Anar Əliyev*

**Art-direktor**
*Aleksey Kozlov*

**İllüstrator**
*Nurana Tahirova*

**Dizayner**
*Rauf Yusupov*

**Məqalələrin müəllifi**
*Zarina Oruc*

**Jurnal üzərində işləmişdirlər:**
*Murad Kazımbəyli*
*Aysel Ələkbərova*
*Əzizə Kuliyeva*
*Validə Ramazanlı*
*Fidan Rəfxanlı*

**Fotoqraflar:**
*Darya Derkaç*
*Orxan Fuladi*

**Bizi izləyin:**
*/ButaAirways /ButaAirways*
*/ButaAirways /ButaAirways /ButaAirwaysru*

**Çağrı mərkəzi (24/7)**
*Tel: +994 12 493 14 14*
*Azərbaycandan zənglər üçün qısa nömrə: *0808*
*WhatsApp: +994 70 437 40 86*
*E-mail:*
*callcenter@butaairways.az*
*Məlumat mərkəzi:*
*help.butaairways.az*

Aviaşirkətə dair təklif və şikayətlərinizi aşağıdakı e-poçt ünvanına göndərə bilərsiniz: claims@butaairways.az

Redaksiyanın ünvanı: Heydər Əliyev Beynəlxalq Aeroportu, Bakı, AZ1044, Azərbaycan
Tel: (+994 12) 504 82 22 | E-mail: magazine@butaairways.az
Reklam məsələləri üçün: adv@butaairways.az, Tel: +994 12 565 11 21

Nəşr edənin yazılı icazəsi olmadan jurnalda dərc edilmiş materialların yenidən tam və ya qismən çap olunmasına, yaxud başqa formada istifadə edilməsinə icazə verilmir. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

# GREYMARK HOTEL

Special for this flight
Bu reysə xüsusi

**%5**

**Endirim**
**Discount**



## Şəhərin mərkəzində
## In the center of the city

| | |
|---|---|
| **Saat Qülləsi** Clock Tower | **1,7 km.** |
| **İzmir Sahil** İzmir Coast | **1,2 km.** |
| **Beynəlxalq Sərgi** Izmir International Fair | **0,3 km.** |
| **İzmir ADB Hava Limanı** Izmir ADB Airport | **17 km.** |



"Olmaq İstədiyiniz Yerdəsiniz"
"You are where you want to be"







+90 232 484 00 72
info@greymark.com.tr
Etiler Mah. Mürselpaşa Bulv. No:8
Konak İzmir Türkiye 35360

# MÜNDƏRİCAT


19


10


25


39


AKTUAL 10
*Azərbaycanın Böyük Qələbəsi!*

FOKUSDA 19
*Əziz Şuşa, sən azadsan!*

SƏYAHƏT 25
*Zamanın qoruyucusu İzmir*

MƏTBƏX 39
*Ləziz qutab*

PANORAMA 48
*Qarabağın görməli yerləri*

FAYDALI MƏLUMAT 60

# Pandemiya dövründə sərnişin daşıma qaydaları



Terminal binasına yalnız **yola düşən** sərnişinlər buraxılır



Terminal binasında və təyyarədə maskadan istifadə zəruridir



Sosial məsafəni təmin etmək üçün xüsusi döşəmə işarələrinə riayət edilməlidir



Uçuş müddətində salonda gəzməyə **icazə verilmir**




**37,5° C-dən yuxarı** hərarəti olan sərnişinlər reysə buraxılmır




Uçuşdan sonra sərnişinlərin baqajı dezinfeksiya olunur



Təyyarədə sərnişinlərə fərdi qoruyucu vasitələr təqdim olunur

# Hörmətli sərnişinlər!



Sizi "Buta Airways" aviaşirkətinin hava gəmisində enerji dolu, sağlam və yaxşı əhval-ruhiyyə ilə salamlamağa ürəkdən şadıq. Biz yenidən üfüqləri fəth etmək üçün yollanır, əvvəlki kimi gələcəyə nikbin baxırıq. Yeni, bizdən asılı olmayan çətin şəraitin yarandığı 2020-ci il mülki aviasiya üçün mürəkkəb dövr oldu. Koronavirus pandemiyası səbəbindən bir neçə gün ərzində dünyanın əksər aviaşirkətləri uçuş cədvəllərini kəskin şəkildə azaltdı, bütün ölkələr sərhədlərini bağladı, beynəlxalq hava əlaqəsi dayandırıldı və hava limanları "süni komaya" düşdü. Bu bir il ərzində qeyri-normal mühit, demək olar ki, hər şeyi dayandırdı. Məhdudlaşdırıcı və karantin tədbirləri dövründə hava limanında hətta adi qəhvə içmək belə böyük bir həzzə çevrildi. Lakin COVID-19 pandemiyası, hər hansı digər çətinlik kimi, bizi daha da möhkəmləndirdi, sahib olduqlarımızı dərk etməyə və qiymətləndirməyə, ətrafdakı vəziyyəti anlayışla və səbrlə qəbul etməyə imkan verdi. Bütün bu müddət ərzində uçuşunuzun istənilən şəraitdə rahat, təhlükəsiz və xoş keçməsi üçün xidmətin təkmilləşdirilməsi, yeni xidmətlərin tətbiqi üzərində işimizi davam etdirdik. Həmçinin "Buta Airways" jurnalının yeni

sayı hava gəmisində keçirdiyiniz vaxtı maraqlı edəcək. Jurnalın bu buraxılışı əvvəlki nəşrlərdən fərqlənir. İndi hava gəmisində jurnalımızı rəqəmsal formatda oxuya bilərsiniz. Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) tövsiyəsi ilə COVID-19 koronavirus pandemiyası zamanı aviaşirkət virusun yayılmasını minimuma endirmək üçün hava gəmisində çap versiyasından imtina etmək qərarına gəldi. Bununla belə, jurnalın rəqəmsal versiyası, kağız nəşri kimi, Sizi Azərbaycanın və digər ölkələrin gözəllikləri və zəngin tarixi-mədəni irsi ilə tanış etməyə davam edəcək. Bu buraxılışda ölkəmizin mədəniyyət paytaxtı - son dərəcə gözəl Şuşa, Bakı bulvarındakı ağappaq sarayın tarixi, qədim İzmir şəhəri haqqında və digər məlumatları oxuya bilərsiniz. Əminik ki, jurnal səyahət zamanı bütün sərnişinlərimiz üçün gözəl yol yoldaşı olacaqdır. Bizə güvəndiyinizə və səyahətləriniz üçün aviaşirkətimizi seçdiyinizə görə Sizə bir daha və səmimi qəlbdən təşəkkür edirik. Böyük məmnuniyyətlə və səbirsizliklə Sizinlə yenidən görüşməyi gözləyirik.

Səyahətləriniz parlaq və şən anlarla dolu olsun. Və gəlin sağlam olacağımıza söz verək!

*"Buta Airways"*
*bort jurnalının redaksiyası.*






# ƏN YÜKSƏK RAHATLIQ VƏ TƏHLÜKƏSİZLİK SƏVİYYƏSİ

HEYDAR ALIYEV
INTERNATIONAL AIRPORT

Bakı şəhərindəki Heydər Əliyev Beynəlxalq Aeroportu "Skytrax" beynəlxalq hava nəqliyyatı reytinq agentliyi tərəfindən "COVID-19" pandemiyası dövründə epidemioloji təhlükəsizlik üzrə ən yüksək "5 ulduzlu" reytinqə layiq görülmüşdür.

COVID-19
SAFETY RATING
★★★★★
CERTIFIED
SKYTRAX

www.airport.az

# Azərbaycanın Böyük Qələbəsi!



44 gün davam edən Vətən (İkinci Qarabağ) müharibəsi Azərbaycanın erməni işğalçıları üzərində parlaq qələbəsi ilə başa çatdı. Əzəli Azərbaycan torpaqları işğaldan azad edildi, düşmən böyük rüsvayçılıqla qovuldu.

Ağır və inadkar döyüşlərdə uzaqgörən Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Milli Ordu, düşmənin zərbə qüvvələrini məğlub edərək, Azərbaycan torpaqlarını erməni işğalçılarından azad etdi. Ərazilərini geri qaytarmaq uğrunda ədalətli müharibə aparan ölkə Böyük Qələbə qazandı. Bu qələbə, şübhəsiz ki, Azərbaycan xalqının tarixi yaddaşında əbədi qalacaqdır.

## Təcavüzkar statusu

30 ilə yaxındır ki, Ermənistan beynəlxalq hüquqa tamamilə məhəl qoymayaraq əzəli Azərbaycan torpaqlarının – Dağlıq Qarabağın və yeddi ətraf rayonun işğalını davam etdirirdi. 1990-cı illərin əvvəllərində baş verən bu vəhşicəsinə işğal Azərbaycan xalqına ağır fəlakətlər və dərin əzablar gətirmişdir.

Nəticədə günahsız insanlar həlak olmuş, bir milyona yaxın Azərbaycanlı öz doğma yurdunu tərk etmək məcburiyyətində qalaraq köçkün kimi yaşamağa məhkum edilmişdir.

Azərbaycanın xeyli sayda tarixi abidələri məhv edilmiş və dağıdılmış, təbiətə böyük ziyan vurulmuş, məscidlər təhqir edilmişdir. Bir vaxtlar isə ölkənin ən gözəl və çiçəklənən, əhalisi çox olan şəhərlərindən biri olan Ağdam uzun illər erməni işğalından sonra ölü şəhərə çevrilmişdir. Bu gün o, qəmgin və kədərli mənzərəni ifadə edir. Orada hər şey yerlə-yeksan edilmişdir. Yalnız məscid salamat qalmışdır.

Ermənistan təxribatçı, cinayətkar hərəkətlərini davam etdirərək, mülki şəxslərə qarşı atəş açmaqla təcavüzkar statusunu qoruyub saxlamışdır. Hərbi əməliyyatlar zonasından kənarda yerləşən Azərbaycanın Gəncə, Bərdə, Naftalan, Tərtər şəhərlərinin və kəndlərinin ballistik raketlər, kaset və fosfor bombalarla atəşə tutulması və zərbələr endirilməsi – bütün humanitar hüquq normalarına zidd olaraq mülki şəxslərin qətlə yetirilməsi – işğalçıların qəddar vəhşilikləri siyahısında daha bir hərbi cinayətdir.



*Dağıdılmış Ağdam.*

## Qaçılmaz məğlubiyyət

Ərazilərin erməni işğalçılarının nəzarəti altında olduğu müddətdə burada ciddi müdafiə istehkamları: bunkerlər, tunellər və s. yaradıldığına görə Qarabağda şiddətli döyüşlər gedirdi. Uzun illər ərzində hazırlıq görmələrinə baxmayaraq, erməni qoşunları müharibənin ilk günlərindən ya müdafiə olunmaq, ya da döyüş meydanından biabırçı şəkildə qaçmaq məcburiyyətində qalmışdılar. Azadlıq uğrunda gedən müharibədə Azərbaycanın havada üstünlük qazanmasında pilotsuz uçuş aparatları əsas rol oynadı. Erməni ordusunun mütləq məğlubiyyəti qədim qala-şəhərin Şuşanın azad olunmasını təmin etdi. Şəhərin Azərbaycan döyüşçüləri tərəfindən faktiki olaraq əlbəyaxa döyüşdə və yüngül silahla, ağır texnikasız ələ keçirilməsi Ermənistanın hərbi və siyasi rəhbərliyini çıxılmaz vəziyyətə saldı. Erməni qüvvələrinin Azərbaycan komandanlığının əlindən strateji təşəbbüsü almaq cəhdləri uğursuzluğa məhkum idi.

**!** *Mühüm məlumat:*

**Dağlıq Qarabağda azadlıq uğrunda gedən müharibə sentyabrın 27-də başladı (sentyabrın 27-nə keçən gecə ermənilər Qarabağda hərbi təxribata əl atdılar) və 10 noyabr 2020-ci ildə Azərbaycanın qələbəsi ilə başa çatdı**






Mülki aviasiya mövzusunda hədiyyələr və suvenirlər.
Onlayn sifariş və Azərbaycanın istənilən şəhər və regionlarına çatdırılma.



store@azal.az

# Qarabağ əbədi olaraq Azərbaycandır!

Qarabağda erməni işğalçı qüvvələrinin darmadağın edilməsi, azadlıq uğrunda gedən müharibədə Azərbaycanın qələbəsi ölkəmizin və onun lideri Prezident İlham Əliyevin dünya arenasında nüfuzunu daha da yüksəltdi.

Azərbaycan Ermənistanı texniki və operativ nöqteyi-nəzərindən üstələdi. Bütün dünya Ali Baş Komandan, Prezident İlham Əliyev başda olmaqla Azərbaycan Ordusunun ərazi bütövlüyünü bərpa edərək tarixi ədaləti bərqərər etməsini izləyirdi. Dövlət başçısının düzgün siyasəti və döyüş meydanında qazanılan qələbə nəticəsində Azərbaycanın Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə belə atılmadan işğaldan azad edildi.

Həmçinin, Azərbaycan Ermənistan ərazisindən keçməklə Naxçıvan eksklavına nəqliyyat dəhlizi əldə etdi. Noyabrın 10-da Azərbaycan bu müharibədə qələbə nöqtəsini qoydu, düşmənin beli qırıldı, Ermənistan məğlubiyyətini etiraf etmək məcburiyyətində qaldı. Azərbaycanda azadlıq uğrunda gedən müharibədə Qələbə Günü hər il noyabrın 8-i - Şuşa şəhərinin azad edildiyi gün qeyd olunacaqdır.

Vətən müharibəsində qələbənin şərəfinə 10 dekabr tarixində Bakıda parad keçirilib və orada Azərbaycan xalqının lideri ilə birlikdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edib.



Paradda hərbi əməliyyatlar zamanı ələ keçirilmiş texnika da nümayiş etdirilmişdir. Bu gün həmin texnika Bakıda Hərbi Qənimətlər Parkında təqdim olunur. Döyüş əməliyyatları zamanı istifadə olunan pilotsuz uçuş aparatları (PUA) da tribunaların qarşısından keçirilib. Və məqalənin sonunda bir sadə həqiqəti təkrarlayaq: Dağlıq Qarabağ Azərbaycanın əzəli, ayrılmaz hissəsidir və bütün dünya bunu tanıyır!

## *Salnamə:*

**4 oktyabr – Cəbrayıl şəhəri işğaldan azad edildi**

**17 oktyabr – Füzuli şəhəri işğaldan azad edildi**

**20 oktyabr – Zəngilan şəhəri işğaldan azad edildi**

**25 oktyabr – Qubadlı şəhəri işğaldan azad edildi**

**8 noyabr – Şuşa şəhəri işğaldan azad edildi**

**Bakı vaxtı ilə noyabrın 10-u üçtərəfli Bəyanat imzalandıqdan sonra işğal olunmuş rayonlar Azərbaycanın nəzarəti altına qayıtdı – Ağdam (20 noyabr), Kəlbəcər (25 noyabr), Laçın (1 dekabr).**

# Xarıbülbül -
# mətanət və azadlıq rəmzi





Qarabağın dağətəyi yerlərində şux qaməti və ecazkar adı olan nadir bir çiçək - Xarıbülbül bitir. Bu zərif bitki öz doğma torpağından ayrı düşməyi sevmir və yad torpaqda çox çətinliklə kök salır.

Bənzərsiz gözəlliyə malik olan çiçəyi alimlər Qafqaz ofrisi (Ophrys caucasica) adlandırırlar. Bu növün sayı olduqca azdır, çox nadir hallarda rast gəlinir. Çiçək quşu xatırladan qeyri-adi quruluşa malikdir – sanki ləçəkdə bir anlığa donmuş bülbül uçmaq üzrədir. Yeri gəlmişkən, Azərbaycan dilindən tərcümədə "xar" sözü "tikan", "bülbül" isə bülbül quşu deməkdir. Azərbaycanda Xarıbülbüllə yüksək və parlaq hissi - Sevgini tərənnüm edən müxtəlif əfsanələr bağlıdır.

Onlardan biri Bülbülün və gözəl Qızılgülün sonsuz məhəbbət hekayəsindən bəhs edir. Onların birliyi çox gözəl idi. Axşamdan səhərə kimi bülbül yorulmadan çiçəyə əbədi məhəbbət haqqında oxuyurdu. Qızılgül çiçəklənərək gözəlləşirdi və yalnız Bülbülə itaətkar idi. Lakin hissləri rədd edilən hiyləgər Xar (tikan) da zərif Qızılgülə aşiq idi. Qəzəblənən Xar onu tikanlarla məhv etmək qərarına gəlir, lakin kəskin tikan yolunda Bülbülün sevən ürəyi ilə qarşılaşır. Xar balaca bədənin ürəyinə sancılır və qan tökülür. Bu anda inanılmaz möcüzə baş verir - qızılgül, tikan və bülbül bir vəhdət halında birləşir. Beləliklə Xarıbülbül yaranır və o vaxtdan bəri çiçək gözəllik, sadəlik və işığın bənzərsiz titrəyişini tərənnüm edir.

Azərbaycanlılar üçün məğrur və gözəl Xarıbülbül Qarabağla və onun ürəyi - Şuşa ilə ayrılmaz şəkildə bağlıdır. Lakin bu gün Xarıbülbül çiçəkdən daha artıq məna kəsb edir, əzmkarlığı və azadlıq arzusunu təcəssüm etdirir. Bu parlaq və nadir çiçək bir anda və qeyri-şüuri olaraq Vətənin azadlığı uğrunda döyüşən şəhid qəhrəmanların nəcib xatirəsinin ümummilli simvoluna, eləcə də cəsarət və milli birlik nümunəsinə çevrildi. Sentyabrın 27-də bütün Azərbaycan, ölkə ilə birlikdə bütün dünya azərbaycanlıları şəhidlərin Anım Gününü qeyd edəcək.

Xarıbülbül Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçmiş minlərlə şəhidimizin Anım Gününün rəmzinə çevrilmişdir. Şəhid Vətən və ədalət uğrunda mübarizədə həlak olan şəxsdir. Bu gün, uzun illərdən sonra, Xarıbülbül yenidən Vətəninin - vahid və bütöv Azərbaycanın etibarlı müdafiəsi altındadır!








Air transportation of passengers, excursions, VIP flights.
Transportation of air cargo by store or in a cabin.
Construction and assembly operations.
Air patrolling and monitoring of oil and gas pipelines and electric transmissions lines.
Medical evacuation (Medevac), search and rescue operations (SAR), emergency medical service (EMS).
Flights to ships and offshore drilling rigs (offshore operations).
Flights in connection with aerial visual survey and videos.
Lease of helicopter with or without crew members.
Special tours and charters by helicopter (hunting, fishing, climbing and so on).

+99412 4374049 +99412 4977301 info@asg-helicopters.az www.asg-helicopters.az

# Əziz Şuşa, sən azadsan!




Şuşa Qarabağın qədim incisidir! Azərbaycanın ən gözəl şəhərlərindən biri və Azərbaycan xalqının tarixi mirasıdır. Torpaqlarının hər qarışına tarix hopmuşdur və məşhur insanların taleləri ilə bağlıdır.

# Azərbaycanın mədəniyyət paytaxtı

Qədim dövrlərdə Qarabağ xanlığının tacı olan şəhər bu gün Azərbaycanın mədəniyyət paytaxtı, mühüm hadisələr və böyük adlar məkanıdır. Şuşa Qarabağın hüdudlarından çox uzaqlarda nadir səsləri ilə şöhrət qazanmış Azərbaycan xalq muğam ifaçılarının - xanəndələrin vətənidir. O, həmçinin bir çox müğənni, bəstəkar və musiqişünaslar üçün sonsuz ilham mənbəyidir.

Qarabağın bu füsunkar guşəsini Qafqazın konservatoriyası və Azərbaycan musiqisinin beşiyi adlandırırlar. Lakin nə şairlərin kəlamı, nə də rəssamların boyaları Şuşa adlı aləmin gözəlliyini və nəcibliyini tam dolğunluğu ilə çatdıra bilmir. Bu aləmlə yalnız Şuşada olarkən tanış olmaq mümkündür. Yalnız buraya gəldikdə, əsasən Dağlıq Qarabağda, Şuşa şəhərinin kənarında bitən Xarıbülbül adlanan qeyri-adi gözəl çiçəyi görə bilərsiniz (bu çiçək haqqında "Tarixə pəncərə" rubrikamızda oxuya bilərsiniz).






### Mühüm məlumat:

**Muğam Azərbaycan ənənəvi musiqisinin əsas janrlarından biridir. UNESCO-nun qərarı ilə Azərbaycan muğamı bəşər mədəniyyəti üçün mühüm dəyəri olan şifahi və qeyri-maddi irsin şah əsərləri siyahısına daxil edilmişdir.**

*Şuşa. Qala divarları.*



## Qala-şəhər Şuşa

Möhtəşəm Şuşa qalası XVIII əsrin ortalarında Qarabağ hökmdarı Pənahəli xan tərəfindən inşa edilmişdir. Dağın təpəsində yerləşən, təmiz və şüşə kimi şəffaf havaya bürünmüş alınmaz qala-şəhər əsrlər boyu düşmənlərin açıq həsədinə səbəb olmuşdur.



*Şuşa. Qala divarları.*




## Nəyi görmək lazımdır?

Şuşa şəhərinin memarlığında mərkəzi yeri şərq üslubunda tikilmiş qala divarları tutur. Dairəvi müdafiə qüllələri olan qalanın iki giriş qapısı var idi - İrəvan və Gəncə qapıları. Şəhərin əsas görməli yerləri - Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Xan qızı bulağı da daxil olmaqla, mənzərəli bulaqlar, karvansaralar, ev muzeyləridir. Şəhər ətrafındakı Çətir şəlaləsi, Daşaltı meydançaları, at yarışlarının keçirildiyi, Novruz bayramının qeyd olunduğu məşhur Cıdır Düzü və s. xüsusi diqqətə layiqdir. Bu, Azərbaycanın qürurlu sonasına – Şuşaya tezliklə səfər edərək turistlərin görə biləcəyi təbii, tarixi və memarlıq abidələrinin siyahısının yalnız bir hissəsidir.

Qarabağa gələn qonaqlar üçün Füzuli şəhərində beynəlxalq hava limanı tikilir. O, bölgəni Azərbaycanın digər regionları ilə, yaxın və uzaq xarici ölkələrlə birləşdirəcək. Hava limanı sayəsində ölkəmiz dünyanın hər yerindən səyahətçiləri dəvət edəcək, Qarabağımızın və onun incisi Şuşanın gözəlliklərini onlarla bölüşəcək.

! ***Maraqlıdır:***

**Əvvəllər şəhər onun qurucusunun şərəfinə Pənahabad adlanırdı. Sonradan adı dəyişdirilərək Şuşa adlandırılmışdır.**



**Fakt:**

**8 may 1992-ci ildə Şuşa işğalçılar tərəfindən zəbt olunmuş, 8 noyabr 2020-ci ildə Azərbaycan ordusu tərəfindən azad edilmişdir.**

# Şuşa mərdlik rəmzidir

8 noyabr 2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev bütün dünya Azərbaycanlılarının səbirsizliklə gözlədiyi sevindirici xəbəri çatdıraraq dedi:

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ – Azərbaycandır!"
Bu gün Şuşa Azərbaycan oğullarının sarsılmazlığı, cəsarəti və mərdliyinin rəmzidir. Düşmən işğalından azad edilmiş Şuşa çox gözəldir!
Lakin əfsanəvi şəhər məhvedici dağıntılara məruz qalmışdır. Düşmən Azərbaycan üçün tarixi və mədəni dəyərə malik olan abidələri bilərəkdən məhv etmişdir. Lakin əsas məqsədinə nail ola bilmədi – Şuşanın məğrur ruhunu qıra bilmədi. Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərində, o cümlədən Şuşada tarixi abidələrin bərpasını əsas vəzifələrdən biri adlandırdı.

Dövlət başçısının tapşırığı ilə Şuşa şəhəri və onun tarixi görünüşü yaxın zamanlarda bərpa ediləcəkdir. Şuşa tezliklə yenidən çiçəklənəcək, daha da gözəlləşəcək, abadlaşacaqdır!

BİZİ MİLYONLAR OXUYUR!

Day.Az

НАС ЧИТАЮТ МИЛЛИОНЫ!



/wwwdayaz

www.day.az

# Zamanın qoruyucusu İzmir

Səciyyəvi xüsusiyyətlərə malik İzmir Egey sahilinin paytaxtı adlanır. Bu şəhəri ən azı bir dəfə ziyarət edən hər kəs, şübhəsiz ki, buraya qayıtmaq istəyir. İzmirin tarixi qəlbindən bəhs etmək üçün biz də qayıtdıq.



## Konağın lələkli rəmzi

*İzmir dar küçələri ilə romantik gəzintiyə sövq edən, dəbdəbəli evləri və gözəl sahili olan, dənizçilər və isti günəş şəharidir.*

*Lakin İzmirin ürəyi qədim Konak Meydanı adlanır. Bura həm də İzmirin əsas, ən izdihamlı sahəsidir, yəqin ki, heç vaxt boş qalmır. Meydanda bu romantik şəhərə bir qədər də Venesiya cazibəsi bəxş edən çoxlu göyərçin də var. Bəslənmiş, şirin-şirin quruldayan quşlar meydanın rəsmi olmasa da, sevimli simvoludur. Konak, Egey dənizinə, çoxsaylı kafelərə, dükanlara və bazara bitişikdir.*

*Meydanın yaxınlığında yerləşən sahildə gəzmək, dincəlmək, təamlardan dadmaq, qürub çağı dənizə, təpələrə və şəhərə açılan əsrarəngiz mənzərələrdən zövq almaq və fotoşəkillər çəkmək xoşdur. Meydan kiçik olsa da, inanılmaz dərəcədə maraqlıdır.*

*Şəhərin əsas görməli yerləri burada yerləşir. Bunlar həm məşhur rəssamların tez-tez sərgiləndiyi Müasir İncəsənət Muzeyi, həm möhtəşəm tamaşalar göstərilən Dövlət Opera Teatrı, həm də İzmir qazıntıları zamanı tapılan tanrı heykəlləri və ən qiymətli daş tabutların saxlanıldığı Arxeoloji Muzeydir. Lakin meydanın iki əsas görməli yerini qonaqlar və şəhər sakinləri asanlıqla adlandıra bilər – bu, miniatür zərif məscid və Saat Qülləsidir.*



# *120 il – Saat Qülləsi*

*İzmirin mərmər Saat Qülləsi şəhərin zaman qoruyucusudur. Hələ XX əsrin əvvəllərində inşa edilmiş bu tikili bir zamanlar şəhərin ən hündür tikilisi hesab olunurdu, lakin bu gün müasir binaların fonunda miniatür görünür. Əvvəllər Saat Qülləsi şəhər sakinlərinin həyatında mühüm rol oynayırdı, onlara vaxtın gedişi barədə məlumat verirdi. Maraqlıdır ki, inşa edildiyi gündən saat yalnız bir dəfə dayanıb (ümumiyyətlə, saat 120 ildir ki, vaxtı göstərir). Bu hadisə 1974-cü ildə zəlzələ zamanı baş verib, qüllənin günbəzi yerindən qoparaq saat mexanizminə dəyib və hərəkətini dayandırıb. Bir müddət sonra qüllə bərpa edilib və saat yenidən öz gedişini davam etdirib.*
*Axşam saatlarında – qürub edən günəşin şüalarında qala və meydan çox möhtəşəm görünür. Axşamlar bura gözəl və əsrarəngiz fotoşəkillər çəkmək üçün ideal yerdir.*





!

## *Fakt:*

**Qüllənin layihəsi fransız memarı Raymond Çarlz Pere tərəfindən hazırlanmışdır. Türk sultanı II Əbdül-Həmidə taxta çıxmasının 25-ci ildönümü münasibətilə hədiyyə olaraq inşa edilmişdir. Saat Qülləsi iki dövlət arasındakı dostluq əlaməti olaraq alman kayzeri II Vilhelmin hədiyyəsidir.**

THE GRAND GLORIA HOTEL

5 STAR

# EMOTIONAL LUXURY



## LOCATED ON THE FIRST LINE OF BATUMI BEACH

HOTEL "THE GRAND GLORIA" 22, SHERIF KHIMSHIASHVILI STREET, 1054, BATUMI, GEORGIA

MOB: (+995) 577 36 31 70  PHN: (+995) 422 252225

WWW.GRANDGLORIA.GE

## Sahil gözəli

Saat Qülləsi ilə üzbəüz XVIII əsrin kiçik, lakin çox zərif məscidi – Yalı (Yalı – sahilyanı) yerləşir. Daha çox yerləşdiyi meydanın adı ilə - Konak məscidi kimi tanınan zərif gözəlliyin yanından keçmək mümkün deyil!

Fərziyyələrdən birinə görə, məscid İzmir dərəbəyinin (feodalının) xanımının istəyi ilə tikilmişdir. Xanıma, onun fikrincə, Allahla danışmaq üçün məkan lazım idi. O, məscidə tək gəlmək və dua etmək arzusunda idi. XX əsrin əvvəllərində məscid böyük hərbi oyunların qurbanına çevrilir – Birinci Dünya müharibəsində tamamilə məhv edilir. Tezliklə, 1920-ci ildə məscid yenidən bərpa olunur. İndi gördüyümüz məscid 1920-ci ildə tikilmiş və 1964-cü ildə yenidən əvvəlki şəklinə salınmışdır. Bu gün o, XVIII əsrdə göründüyü formadadır, İzmir sakinlərini və qonaqlarını öz rəngarəng görünüşü ilə sevindirir.

İzmirə gəlin, onun küçələrini gəzin, qağayıların söhbətini dinləyin, dənizdə əsrarəngiz günəş qürubu mənzərəsindən zövq alın. Və bu şəhərə bir daha qayıtmaq arzunuz yaranacaq.



# Nəyi bilmək lazımdır?

Dövlət dili – Türk dili
Valyuta – Türk lirəsi

**İzmirdən nə gətirmək mümkündür:**



Qəlyan və ya qəhvədan



Türk qəhvəsi/çayı



Zərgərlik məmulatları



Mozaik lampalar



Kosmetika – qızılgül suyu/yağı, zeytun yağlı sabun



Nərd



Şərq şirniyyatları - paxlava

## FAYDALI MƏLUMAT
### Aeroportdan şəhərə

Adnan Menderes adına hava limanı İzmirin mərkəzindən 18 km cənubda yerləşir. Buradan şəhər mərkəzinə şəhər avtobusları, "Havaş" şirkətinin şatlları, elektrik qatarı və taksi ilə getmək mümkündür. Hava limanında avtomobil icarəsi məntəqələri də var.

TAKE CARE OF YOURSELF AND YOUR LOVED ONES!




GAZELLI GROUP

AZERBAIJAN | EST. 1999

# Nağıl və həqiqət: Bakı Kukla Teatrı

Bakı kollaj şəhərdir. Şəhərin mərkəzində, Bakı bulvarında çox gözəl bir saray yerləşir - Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı. Uzaqdan o, Xəzərin sahilində nağılabənzər al çiçəyi xatırladır. Bakıdan daha qədim olan şəhərlərin memarlığı ilə müqayisədə o, heç də az sayda turist cəlb etmir.




...ВООТКРЫТЫЙ ТЕАТРЪ „ФЕНОМЕНЪ“

на Новомъ Бульваръ, въ собственномъ зданіи.

съ 15 іюня 1910 г. ставится программа:

1. ИСТОРІЯ БУТЕРБРОДА СЪ САРДИНКОЮ.

...КАТАСТРОФА ПОДВОДНОЙ ЛОДКИ „ПЛЮВІОЗЪ“.

3. НОВОБРАЧНАЯ ВЪ ЗАКОЛДОВАННОМЪ ЗАМКѢ

цвѣтная феерія.

4. ЖЕСТОКОЕ ПОДОЗРѢНІЕ

драма.

5. ЧЕГО НЕ ДѢЛАЕТЪ ЛЮБОВЬ?

комическая.

Обширный, изящный залъ, экранъ большихъ размѣровъ. Нагнетательная вентиляція съ озонаторомъ, фильтромъ и охлаждающими камерами (послѣднее усовершенствованіе, устраняющее [illegible] подъемъ пыли при вытяжной вентиляціи).

КАРТИНЫ, помѣщенныя ВЪ ПРОГРАММѢ безусловно НОВЫЯ, перваго экрана, т. е. одновременно съ Петербургомъ и Москвою.

Музыка (скрипачъ и піанистъ) подобрана къ картинамъ. Инструментъ Бехштейна.

Полная перемѣна картинъ по вторникамъ и субботамъ.

ПРИ ТЕАТРѢ ВАРШАВСКАЯ КОФЕЙНАЯ СЪ ЗАКУСКАМИ и ПРОХЛАДИТЕЛЬНЫМИ НАПИТКАМИ.

При ней терасса съ видомъ на море. Входъ на терассы безплатный.

ЦѢНЫ МѢСТАМЪ: [illegible]

## Daşda təcəssüm olunan kino

XIX əsrin sonu – XX əsrin əvvəlində Bakı ilk neft bumunu yaşadı. Bu neft dalğasında hiss edilmədən və sürətlə xaricdən gələn yeniliklərin olduğu yeni bir şəhər yarandı. Bu yeniliklərdən biri də sinematoqraf oldu. O, XIX əsrin sonunun parlaq hadisəsinə çevrildi.

Tamaşalar baxımından Bakı digər şəhərlərdən geri qalmırdı, buna görə də 1910-cu ildə burada Fransa İntibah üslubunda inşa edilmiş paytaxt kinoteatrı - “Fenomen” sinematoqraf-teatrı açıldı. Hər cür dəbli yeniliklərə can atan Bakı tamaşaçıları əsl kinoya heyran oldu - filmlər çox qısa müddətə nümayiş olunurdu, lakin onlar zamana və digər ölkələrə heyrətamiz səyahət etmək imkanı verirdi.



**Qeyd:**

Matroslar "Fenomen"in sıx ziyarətçiləri idilər. Sinematoqrafın binasının arxasında o illərdə ən böyük paraxod şirkətlərindən biri olan “Qafqaz və Merkuri” şirkətinin yanalma körpüsü yerləşirdi.

# Polyak memar

*Xəzərin fonunda süzən saray/ sinematoqraf teatrı həmin illərdə şəhərdə məhsuldar fəaliyyət göstərən Polşa mənşəli məşhur memar İosif Ploşkonun layihəsinə əsasən Bakı Bulvarında inşa olunmuşdur. Həmçinin onun şəhərdəki digər maraqlı daş əsərləri "İsmailiyyə" və "Səadət Sarayı" malikanələridir.*

## Maraqlıdır:

**Bakının tarixi mərkəzində Polşa memarları küçəsi var. Bu küçədəki binalardan birinin divarında üzərində memar İosif Ploşko da daxil olmaqla Polşa memarlarının adlarının həkk olunduğu xatirə lövhəsi var.**








www.bookand.travel support@bookand.travel

## Bakıda qədim yunan tanrıları

*Teatr heyranlıq doğururdu. Xaricdən o, qədim yunan və Roma tanrılarının heykəlləri ilə tamamlanırdı. Heykəllər, yüksək pəncərələr, kino - bütün bunlar cənub şəhərinə şən əhval-ruhiyyə gətirdi.*

*Bu gün bu heykəllər binanın dekorasiyasına daxil deyil, lakin ümumilikdə o, dəyişməz olaraq qalıb. Müxtəlif illərdə orada Satiragit işçi teatrı, kinoteatr, Gənc Tamaşaçılar Teatrı və digər idarələr/təşkilatlar yerləşib. XX əsrin 70-ci illərinin əvvəllərində binaya Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı köçdü. Bu gün burada uşaqları, eyni zamanda böyükləri sevindirir, onları XIX əsrin əvvəllərində olduğu kimi sehrli bir Azərbaycan nağılına qərq edirlər.*





# MOBİL ƏLAVƏMİZİ YÜKLƏYİN

*GET OUR MOBILE APP*

*СКАЧАЙТЕ НАШЕ МОБИЛЬНОЕ ПРИЛОЖЕНИЕ*




Available on the App Store

ANDROID APP ON Google Play

www.butaairways.az

Silk row travel

# Azərbaycanda

## Ekskursiya və turlar









### Qədim və müasir Bakı

Təzadlar şəhəri, Qərblə Şərqin qovuşduğu yer. Azərbaycan Xalça Muzeyinin, Alov Qüllələrinin qeyri-adi görünüşü və ən məşhur memar-qadın Zaha Hadidin kosmik əsəri olan Heydər Əliyev Mərkəzi sizi təəccübləndirəcəkdir.

### Böyük İpək Yolu

Serpantin kimi qədim Şamaxı, Qəbələ, Şəki şəhərlərindən keçəcəkdir. Səyahət Sizi orta əsrlərə aparacaq; karvansara, Şəki xanları sarayı, orta əsr qalası və Alban kilsəsinə baş çəkəcəksiniz.

### Əfsanələr şəhəri – Naxçıvan

Tarixə qərq olmaq istərdinizmi? O zaman Naxçıvan mütləq səyahət edilməli məkandır. Şəhər qədim insan məskənidir. Burada qüllələr, qalalar və məqbərələrin qədim xarabalıqlarını görəcəksiniz. Həmçinin Nuhun gəmisi haqqında rəvayətləri də öyrənəcəksiniz.

Ünvan: Səməd Vurğun küçəsi 34, AZ1014. Bakı, Azərbaycan
Telefon: (+99412) 4374720 Faks: (+99412) 4374723 Email: incoming@silkrow.az
fb.com/silkrowtravel
www.silkrow.az



# Ləziz qutab

Qutab - Azərbaycan mətbəxinin ən çox sevilən təamlarından biri, aypara formasında yastı kətədir. İnanılmaz dadlı qutablar incə, demək olar ki, şəffaf, aşağı kalorili xəmirdən hazırlanır. İtaliyada pizza və ya Ukraynada borş ölkənin qida simvolu olduğu kimi, qutab da bizim ölkənin özünəməxsus rəmzidir. Ölkəmizdə belə bir ifadə var: “Qutab yeməmisənsə, hesab et ki, ölkədə olmamısan”.  İndi qutabın nə olduğu və necə hazırlandığı barədə bəhs edək.



## Əllərin musiqisi

Qutabın hazırlanması prosesi əllərin yaratdığı musiqiyə bənzəyir. Bütün simfoniya xəmirin yoğurulmasından başlayaraq qutabın yaxşı qızdırılan tavada (sacda) bişirildiyi müddəti əhatə edir. Mühüm təfərrüat: qutab quru tavada, qızılı naxışlar yarananadək bişirilir. Sonra heyranedici dadını tamamlamaq üçün boşqabda üzərinə əridilmiş yağ və ya kərə yağı çəkilir. Yumşaq və incə xəmirin altında təravətli, ağızda əriyən içlik var. Yeri gəlmişkən, "yağ sıyığı korlamaz" kəlməsi qutaba şamil olunmur: içinin çoxluğu arzuolunan deyil, orta səviyyədə olmalı, eyni zamanda az da olmamalıdır.



## İki dişləkdə yeyilir

Qutab Azərbaycanla bağlı olan hər kəs üçün xüsusi yer tutur. Qutab, adətən, heç vaxt az miqdarda bişirilmir, ürəkdən, bol hazırlanır ki, həm dadlı, həm də doyumlu olsun – adambaşına üç-yeddi ədəd. Qutab dərhal yeyilir, iki dişləkdə boşqabdan yoxa çıxır.

Fasilələrdə ənənəvi armudu stəkanlarda kəklikotulu çay içilir. Yeri gəlmişkən, Azərbaycanda çay qonaqpərvərliyin və qonaqlara hörmətin rəmzlərindən biri hesab olunur. Odlar yurdunda çay ənənəsi haqqında "Buta Airways" jurnalının buraxışlarının birində mütləq danışacağıq.



Corat qutablarının unudulmaz dadı.



# Corata qutab dalınca

Klassik qutab xəmiri çox sadədir və tərkibinə üç məhsul daxildir – un, su və duz. İçlik isə müxtəlif ola bilər: ət, göyərti, pendir, balqabaq, içalat və s. Əlbəttə, ənənəvi qutab göyərti qutabı və ya nar dənələri qatılmış ət qutabıdır. Amma Bakıda dəvə əti ilə doldurulmuş, xüsusilə Corat qəsəbəsində bişirilən qutab daha ləzzətlidir - bu səbəbdən də Corat qutabı adlanır. Qəsəbə Bakı ilə Sumqayıt arasında dəniz sahilində yerləşir. Mütləq ora gedin və aypara şəklində, ovucun yarısı ölçüdə Corat qutabının unudulmaz dadından zövq alın.



**Maraqlıdır:**

**Qədimdən belə hesab edilirdi ki, ailə qurmağa hazırlaşan Azərbaycanlı qızın əsas bəzəyi ətirli çörək bişirmək, xalça toxumaq və qutab hazırlamaq bacarığıdır.**



## Bilmək faydalıdır:

Süfrəyə verilərkən ət qutabı, bəzən də göyərti qutabı turşməzə ədviyyatla – sumaxla səpilir. Göyərti qutabının yanına süd məhsulu - qatıq verilir, yeməyin yağını və karbohidratını təsirsiz hala gətirir.

# Qutab necə hazırlanır:

- Qutabı ev şəraitində çox asan hazırlamaq olar. Bu kulinariya əsərində texnologiya reseptdən daha vacibdir: unu qaba ələyir, duz və su əlavə edirik. Xəmiri yoğururuq.

- Xəmir bir az "dincəldikdən" sonra ustalıqla bir neçə hərəkətlər edirik: xəmiri kiçik parçalara ayırır və onlardan kündələr tuturuq. Həmin kündələri nazik, yüngül yuxalara yayırıq.

- İçliyi yuxanın bir tərəfinə yayır, digər tərəfi ilə örtürük, kənarlarını bişirərkən açılmaması üçün bir qat və ya hörük şəklində sıx bükürük.

- Qutabı qızdırılmış tavada hər tərəfdən 2 dəqiqə, yüngülcə qızarana qədər bişiririk.

- Hər iki tərəfinə əridilmiş və ya kərə yağı çəkirik.





## Göyərti və ət qutabının resepti:

*12-15 nəfərlik xəmir üçün:*

Un - 4-5 stəkan,
duz - 1 çay qaşığı,
su - tələb olunan miqdarda.
Xəmirə bir yumurta əlavə edə bilərsiniz.

## *Ət qutabı üçün içlik*

Ənənəvi olaraq, ət qutabı üçün qoyun ətinin filesi seçilir. Qoyun əti qiyməsinə (500-800 qram) xırda doğranmış soğan (2 ədəd) və zövqə görə duz/istiot əlavə edirik. Soğan ətə əlavə sululuq verəcəkdir.

Qarışdırırıq, soğan və ədviyyatın ətə hopması üçün gözləyirik. Qiymə aşağı odda qızardılır. Dadlı içlik alınır. Narı (1 ədəd) təmizləyir və dənələrə ayırırıq. Yuxanın bir tərəfinə qiyməni yaxır, nar dənələrini səpir və ikinci yarısı ilə örtürük. Kənarlarını bükür və tavada qızardırıq. Nuşcanlıqla hazırlayın, hər şey sadə və ən əsası dadlıdır. Təki istək olsun!

## *Göyərti qutabı üçün içlik*

8-10 dəstə göyərti lazımdır. Müxtəlif göyərti qatıla bilər, neytral baza kimi istifadə edilir: şüyüd, keşniş, yaşıl soğan, ispanaq, nanə, turşəng (turşməzəlik verir), cəfəri, kəvər, təcrübəli evdar xanımlar mövsümdə hətta təzə gicitkən əlavə edirlər.

Göyərtini yuyur, dəsmalla qurulayır, kobud gövdələrini qırır, xırda-xırda doğrayır, duz əlavə edirik.



# Azərbaycan haqqında 5 fakt

**Azərbaycan təcrübəli səyyahı belə öz koloriti ilə valeh edəcək heyrətamiz ölkədir. Biz oxucunu ölkəmizin ecazkar yerləri, ənənələri və xüsusiyyətləri ilə artıq tanış etmişik. Aşağıda Azərbaycan haqqında daha beş faktı təqdim edirik:**




Bakının yaxınlığında Yanardağ yerləşir. Qılınclarından biri həqiqətən yanır və alovu yerin altından çıxan təbii qaz qidalandırır.

Azərbaycan öz milli mətbəxi ilə məşhurdur və onun kraliçası inanılmaz dadlı dolma hesab olunur. Azərbaycan dolması 2017-ci ilin dekabrında UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir. Bu dadlı, son dərəcə zərif və ləzzətli yeməyi ölkəyə gəldiyiniz zaman mütləq dadmağınız lazımdır.





## 3

Azərbaycanın Lənkəran rayonunun sahil xəttinin xüsusiyyətlərindən biri qara qumdur. Qara qumun meydana çıxmasına vulkanik lava səbəb olub. Bu, vulkanın ağzından axan lavanın dəniz suyu ilə təmasının nəticəsidir.

## 4

Kəlağayı Azərbaycan milli qadın baş geyimidir. Bu, naxışlı ipək örpəkdir. 2014-cü ilin noyabr ayında kəlağayı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir. İncə, zərif və eyni zamanda çox möhkəm materialdan olan yaylıq həm günəşdən, həm də soyuq küləkdən yaxşı qoruyur.



Çövkən Qarabağ atları üzərində cəlbedici və idman gərginliyi ilə dolu ənənəvi Azərbaycan oyunudur. Çövkən müasir at polosunun əcdadı hesab edilir. Azərbaycanın müxtəlif şəhərlərində bu günə qədər çövkən milli oyunu üzrə turnirlər keçirilir. 2013-cü ilin dekabrında çövkən oyunu UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.



## 5

**Müntəzəm "Panorama" rubrikamız oxucuları İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusu tərəfindən uzunmüddətli düşmən işğalından azad edilmiş Qarabağ şəhərləri ilə tanış edir.**

*İllüstrasiyaçı Nuranə Tahirovanın müəllif layihəsi*




*Cəbrayıl rayonu 1930-cu ildə yaradılmış Azərbaycanın inzibati bölgəsidir və mərkəzi Cəbrayıl şəhəridir. 1993-cü ilin avqust ayında Cəbrayıl erməni işğalçıları tərəfindən işğal olunmuş, 4 oktyabr 2020-ci ildə Azərbaycan Ordusu tərəfindən azad edilmişdir.*

*İllüstrasiyaçı Nuranə Tahirovanın müəllif layihəsi*




*Şəhər müasir adını 1959-cu ildə dahi şair Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə almışdır. 1993-cü ilin avqust ayında erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş Füzuli şəhəri 17 oktyabr 2020-ci ildə işğaldan azad edilmişdir.*

*İllüstrasiyaçı Nuranə Tahirovanın müəllif layihəsi*



# Zəngilan

*Zəngilan Azərbaycanın füsunkar yerlərindən biridir, zəngin təbiətə və mədəniyyətə malikdir, tarixi abidələri ilə məşhurdur. 1993-cü ilin oktyabr ayında şəhər erməni silahlı quldur dəstələri tərəfindən işğal olunmuş, 20 oktyabr 2020-ci ildə isə düşmən qoşunlarından azad edilmişdir.*

*İllüstrasiyaçı Nuranə Tahirovanın müəllif layihəsi*




*Qubadlı əsrarəngiz təbiət mənzərələri ilə seçilir. Qubadlı rayonunun böyük bir hissəsi sıx kölgəli meşələri və müalicəvi bulaqları olan dağlıq ərazidə yerləşmişdir. 1993-cü ilin avqust ayında Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, 25 oktyabr 2020-ci ildə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir.*

*İllüstrasiyaçı Nuranə Tahirovanın müəllif layihəsi*




# Şuşa

*Şuşa Azərbaycan mədəniyyətinin və musiqisinin beşiyi, ölkə tarixinin simvoludur. Şəhərin əsası 18-ci əsrdə Qarabağ hökmdarı Pənahəli Xan tərəfindən qoyulmuşdur. 1992-ci ilin may ayında işğal olunmuş Qarabağın incisi 8 noyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin bölmələrindən azad edilmişdir.*

*İllüstrasiyaçı Nuranə Tahirovanın müəllif layihəsi*



# Ağdam

*Müharibədən əvvəl Ağdam Azərbaycanın çiçəklənən şəhərlərindən biri idi, hər guşəsində bağlar salınmışdı. Çox təəssüf ki, uzun illər davam edən işğal dövründə Ağdam dağıdılmış və "ölü" şəhərə çevrilmişdir. Lakin vaxtilə Azərbaycanın bu gözəl guşəsini dirçəliş və çiçəklənmə gözləyir. 1994-cü ilin may ayında ermənilər Ağdamı işğal edə bildilər, 20 noyabr 2020-ci ildə isə şəhər düşmən işğalından azad edildi.*

*İllüstrasiyaçı Nuranə Tahirovanın müəllif layihəsi*



# Kəlbəcər

*Kəlbəcər Azərbaycanın cənnət guşəsidir. Bu bölgənin təbiəti canlandırıcı suyu, sıx yaşıl meşələri və mineral bulaqları ilə tanınır. Kəlbəcər, 1993-cü ilin aprel ayında erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, 25 noyabr 2020-ci ildə işğaldan azad olunmuşdur.*

*İllüstrasiyaçı Nuranə Tahirovanın müəllif layihəsi*



# Laçın

*Mənzərəli meşələri, büllur kimi təmiz havası, şəffaf suları və isti bulaqları ilə məşhurdur Laçın. Təbiət Laçın rayonuna məftunedici gözəllik bəxş etmişdir. 1992-ci ilin may ayında Laçın Ermənistan qoşunları tərəfindən işğal olunmuş, 1 dekabr 2020-ci ildə şəhər işğaldan azad olunmuşdur.*

FLY INN
BAKU

MORE THAN ACCOMMODATION




Fly Inn Baku has a unique location at Heydar Aliyev International Airport, just 3 minutes from the Baku Expo Center, 10 minutes from the beach and 25 minutes from the city center.

We offer wide range of facilities and services, including spacious guestrooms, state-of-the-art Spa, outdoor and indoor pools, as well as restaurants and bars with local and international cuisine and extensive beverages selection.

www.flyinn.az    +994 12 437 4949    info@flyinn.az

## Faydalı tranzit:

Heydər Əliyev Beynəlxalq Aeroportu inkişaf etmiş ticarət və iaşə strukturuna malikdir. Təyyarəyə çıxış qapılarının yaxınlığında çoxsaylı rahat yumşaq kreslolar yerləşdirilmişdir, səyahətçilər burada əyləşərək mobil qurğuları üçün enerji təminatından, həmçinin pulsuz Wi-Fi-dan istifadə edə bilərlər. Terminallarda bankomat və mübadilə məntəqələri, notbuk və ya mobil telefonların enerji təminatı üçün xüsusi masalar mövcuddur.

Sərnişinlər Bakı hava limanında əksər hallarda uçuşdan əvvəl, digər reysə keçid və ya uçuşun gecikməsi zamanı çox vaxt keçirirlər. Tranzit zonada olarkən əziyyətli gözləmə vaxtını necə maraqlı keçirmək üçün bəzi tövsiyələri təqdim edirik.



## Şəbəkəyə daxil olmaq

Baku Airport Free Wi-Fi şəbəkəsini seçərək pulsuz internetə qoşula, sosial səhifələrə baxa, elektron poçtunuzu yoxlaya, e-mail göndərə, ən son xəbərləri oxuya bilərsiniz. Pulsuz kanalın sürəti Youtube-da video izləmək üçün də kifayətdir.



## Qastronomik tura çıxmaq

Bakının hava limanında ən tələbkar zövqü təmin edəcək yaxşı qəhvəxana və restoran seçimi mövcuddur. Onların konsepsiyası olduqca xoşdur: burada qəhvə içmək, sendviç və ya salatla sakitcə qəlyanaltı etmək və ya zövqünüzə uyğun təamı tapmaq mümkündür.



## Alış-verişə getmək

Burada hər zövqə uyğun hər şey var: məşhur markaların geyimlərinin, zinət əşyalarının, saatların və s. təqdim olunduğu mağazalar və butiklər. Duty Free-də təkcə standart ətir, konyak, şokolad, siqaret deyil, aksessuarlar və kosmetika da tapa bilərsiniz. Burada həmçinin ənənəvi milli suvenirlər və dekor əşyalarının geniş çeşidini təqdim edən ABAD mərkəzi fəaliyyət göstərir. Mərkəzdə təqdim olunan məhsulların özəlliyi ondan ibarətdir ki, onların hamısı əl işidir. Əsas odur ki, yola düşməzdən əvvəl alış-veriş etməklə, uçuşunuzu unutmayasınız: reysə minik vaxtı və çıxış nömrəsi minik talonunuzda göstərilmişdir.




## Kitabxanada əyləşmək

Bakı hava limanında səyahət edən kitabsevərlər üçün guşə xoş və faydalı məkandır. Uçuşdan əvvəl vaxtınızı rahat və rəngarəng mini kitabxanada kitabla keçirə bilərsiniz. Burada həmçinin kompüter arxasında oturmaq və son xəbərlərlə tanış olmaq, bir çox faydalı məlumatları öyrənmək imkanı verilir. Yaxud elektron kitabları notbukunuza və ya planşetinizə pulsuz yükləyə bilərsiniz.



**Mühüm məlumat:**
Sərnişinlərin nəzərinə: Koronavirus pandemiyası (COVID-19) dövründə "Buta Airways" aviaşirkəti tərəfindən yerinə yetirilən reyslərə Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalında xidmət göstərilir. Sərnişinlərin qeydiyyatı və baqajın rəsmiləşdirilməsi uçuşdan 2 saat əvvəl başlayır və 60 dəqiqə qalmış bitir.


NO
TIME
TO
WASTE
AZERBAIJAN
ASG
BUSINESS AVIATION
www.asg-businessaviation.az
ops@asg-businessaviation.az

# FAYDALI MƏLUMAT



“Buta Airways” aviaşirkətinin rəsmi internet səhifəsi
Tariflər və xidmətlər
Təhlükəsizlik qaydaları
“AZAL Miles” bonus proqramı

# www.butaairways.az




Aviabiletlərin ən yaxşı qiymətinə zəmanət

Bronlaşdırmanı idarəetmə və reysə onlayn-qeydiyyat

Daşınma qaydaları və tariflərin şərtləri haqqında məlumat

Aviaşirkətin ən son xəbərləri və xüsusi təklifləri

Sərnişinlərin tez-tez verdiyi suallara cavablar

Otel və avtomobillərin bronlaşdırılması

/ButaAirways /ButaAirways /ButaAirways /ButaAirways

## Mobil telefonların IMEI kodlarının qeydiyyatı

Ölkədə IMEI kodların qeydiyyat proseduru çox sadə və olduqca rahatdır.  30 gün ərzində "Azərpoçt"un poçt şöbələrində qeydiyyatdan keçmək mümkündür, xidmət həmçinin www.imei.az portalında da mövcuddur. Telefonu qeydiyyatdan keçirmək üçün şəxsiyyət vəsiqəsini və surətini, baxış üçün telefonu və müvafiq ərizəni təqdim etməklə anket formasını doldurmalısınız. Cihazın qeydiyyatı 24 saat ərzində həyata keçirilir. Telefonun IMEI kodu qeydiyyatdan keçirilmədiyi təqdirdə mobil qurğu 30 gündən sonra bloklanır və IMEI kodu "qara siyahı"ya əlavə olunur. Qeydiyyat tələbi ölkə ərazisində xarici rabitə operatorunun SİM-kartlarından və rouminq rabitəsindən istifadə edən əcnəbi vətəndaşlara və ölkəyə gələn turistlərə şamil edilmir.




## Mobil rabitə operatorları

Azərbaycanda üç mobil rabitə operatoru - Azercell, Bakcell və Nar - fəaliyyət göstərir. Ölkənin bütün ərazisi mobil rabitə ilə əhatə olunmuşdur.

Ölkədəki epidemioloji vəziyyətlə bağlı tətbiq edilmiş məhdudiyyətləri və qaydaları nəzərə alaraq "Buta Airways" aviaşirkəti biletləri yalnız iki tarif üzrə təklif edir - "Standart" və "Super". Bu tariflər baqajın daşınması, biletin maksimal müddəti, biletin geri qaytarılması və dəyişilməsi şərtləri ilə fərqlənir. Hər iki tarifə ödənişsiz qaydada yer seçimi və hava limanında qeydiyyat opsiyaları daxildir.

## "Buta Airways" aviaşirkətinin təklif etdiyi aviabiletlərin tarifi üzrə ümumi cədvəl:

| | Standart | Super |
|---|---|---|
| Minimal qiymət | 55 avro | 75 avro |
| Aviabiletin tarixinin uçuşdan əvvəl dəyişdirilməsi | Uçuşdan 1-24 saat əvvəl – icazə verilmir<br>24-96 saat əvvəl – 75 %<br>96 saatdan artıq – 50% cərimə tutulur. | Uçuşdan 1-24 saat əvvəl – 75%<br>24-96 saat əvvəl – 50%<br>96 saatdan artıq – 60 avro məbləğində cərimə tutulması şərtilə həyata keçirilir |
| Aviabiletin uçuşdan öncə qaytarılması | Uçuşdan 1-24 saat əvvəl – icazə verilmir<br>24-96 saat əvvəl – 75 %<br>96 saatdan artıq – 50% cərimə tutulur. | Uçuşdan 1-24 saat öncə – 75% cərimə tutulur.<br>24-96 saat öncə 50% cərimə tutulur.<br>96 saatdan artıq 60 avro məbləğində cərimə tutulur. |
| Əl yükünün daşınması | İcazə verilmir | İcazə verilmir |
| Baqajın daşınması | 10 kq-dək ödənişsizdir | 23 kq-dək ödənişsizdir |
| Maksimum qalma müddəti | 12 ay | 12 ay |

Baqaj qeydiyyata alınmış və qeydiyyata alınmamış olmaqla iki yerə ayrılır. Baqaj bölməsində daşınacaq baqaj qeydiyyat masasında qeydiyyatdan keçməlidir. Ona xüsusi baqaj birkası bərkidilir. Qeydiyyata alınmamış baqaja sərnişinin özü ilə təyyarənin salonuna götürə biləcəyi şəxsi əşyaları, əl yükü aid edilir. Həmçinin yanınızda olan və baqaja qoyulmayan aşağıdakı əşyaları təyyarənin kabinəsində ödənişsiz əsasda daşıya bilərsiniz (hər birindən bir ədəd olmaqla):

Təyyarənin göyərtəsində icazə verilən əl yükü. Məhdudiyyət "COVİD-19" ilə mübarizə tədbirləri kimi tətbiq olunur.



Kişi portfeli | Qadın əl çantası | Notbuk

Əşyaların böyüklüyü üç ölçünün cəmi üzrə 75 sm-dən çox olmamalıdır

## Baqaj üçün əlavə ödənişli yerlər:

Çəki məhdudiyyəti qoyulmayan, üç ölçünün cəmi üzrə qabariti 110 sm-dən (55x35x20) artıq olmayan əl yükü üçün - 25 EUR (30 USD).

Çəkisi 23 kq-dək (daxil olmaqla) olan, qabariti isə üç ölçünün cəmi üzrə 158 sm-dən artıq olmayan baqaj üçün - 25 EUR (30 USD). Uçuşdan azı 3 saat əvvəl aviaşirkətin saytında, habelə kassa və rəsmi agentliklərdə ödəniş etdikdə bu məbləğ 20 EUR (25 USD) təşkil edir.

Üç ölçünün cəmi üzrə qabariti 203 sm-i keçməyən çəkisi 23 kq-dan artıq baqaj üçün – 50 EUR (60 USD)

“Low Cost” məsləhəti: çəki 1 baqaj vahidi üzrə hesablanır və toplanmır. Məsələn, əgər Siz iki nəfər uçursunuzsa, pulsuz baqaj normaları üzrə 10 kq + 10 kq-ı toplamaq və özünlə 20 kq çəkisi olan baqaj götürmək olmaz. Hər bir sərnişinə çəkisi 10 kq-dan artıq olmayan ayrıca baqaj düşməlidir.

## Yer seçimi və qeydiyyat:

| | |
|---|---|
| Ayaqlar üçün daha geniş sahəsi olan yer | 25 avro |
| Salonun ön hissəsində yer | 15 avro |
| Adi yer seçimi | Ödənişsiz |

Diqqətinizə çatdırırıq ki, göyərtədə ayaqlarınız üçün daha geniş sahəsi olan yerlər qəza çıxışları ilə yanaşı yerləşir. Buna görə də, təhlükəsizlik baxımından lazımi əsas təhlükəsizlik prosedurlarını yerinə yetirə bilməyən müəyyən kateqoriyalı sərnişinlərə (15 yaşınadək sərnişinlər, uşaqlarla, heyvanlarla səyahət edən sərnişinlər, sağlamlıq imkanları məhdud olan insanlar) həmin yerlərdə əyləşməsinə icazə verilmir.

# Təyyarə havaya qalxarkən və yerə enərkən təhlükəsizlik qaydaları

Uçuşun ən yüksək səviyyədə xoş və rahat keçməsi üçün təyyarənin göyərtəsində təhlükəsizlik qaydalarına və səyahətçinin etik davranış qaydalarına etinasız yanaşmayın.

## Mobil telefonları söndürün

Təyyarənin naviqasiya avadanlığına maneə törətməmək üçün təyyarənin havaya qalxdığı və yerə endiyi vaxt ərzində mobil telefonları və digər elektron qurğuları söndürün. Təyyarə kreyser hündürlüyünə çatdıqdan sonra “aviarejim”ə (“Airplane mode”) keçərək telefondan istifadə edə bilərsiniz.

## Təhlükəsizlik kəmərini bağlayın, açılıb-yığılan masaları qatlayın

Əgər bütün uçuş boyu oturur və ya yatırsınızsa, təhlükəsizlik kəmərini bağlı saxlayın. Bu, hava boşluqlarına daha asan qatlaşmağa kömək edəcək, həmçinin turbulentlik yaranan zaman baş verə biləcək sərt silkələnmə halında Sizi zədələrdən qoruyacaq. Açılıb-yığılan masaları qatlayın, çünki onlar ilə toqquşma insan sağlamlığı üçün ciddi fəsadlara gətirib çıxara bilər.

## Oturacaqların söykənəcəyini şaquli vəziyyətə gətirin

Yüksəkliyə qalxarkən və yerə enərkən, habelə qida qəbulu zamanı oturacağın söykənəcəyi dik vəziyyətdə olmalıdır. Bu tövsiyə əhəmiyyətlidir: qarşınızda oturan sərnişinin geri qatlanmış oturacağı oturduğunuz yerdən çıxmağınızı əngəlləyə bilər.

## İllüminatorların  pərdələrini açın

Təyyarənin yerdə hərəkəti, yüksəkliyə qalxması və yerə enməsi zamanı illüminatorların pərdələrini qaldırın. Belə olan halda göydə işıqlandırmanın kəskin surətdə dəyişməsinə uyğunlaşmaq və səmti müəyyənləşdirmək Sizin üçün daha asan olacaq. Pərdələrin açılması hər hansı bir gözlənilməyən hal zamanı göyərtədən kənardakı vəziyyəti gözdən keçirmək üçün lazımdır. Bundan başqa, sərt eniş zamanı plastik pərdənin parçalanaraq Sizi yaralamaq ehtimalı da var.

## Siqaret çəkməkdən çəkinin

Təyyarənin salonunda siqaret çəkmək bütün uçuş boyu qadağan olunur, bu qayda elektron siqaretlərə də aiddir.

## Alkoqollu içkilərdən sui-istifadə etməyin

Təyyarənin göyərtəsində artıq miqdarda spirtli içki qəbul etməyin. Bu, göyərtədəki digər sərnişinlər üçün narahatlıq yaratmamalıdır.

# Uçuş zamanı “səyahətçinin etik davranış” qaydaları

- Uçuşdan öncə ətriyyat vasitələrindən çox istifadə etməyin.
- Oturacağınızın söykənəcəyini geriyə açmaq istəyiniz barədə arxanızdakı oturacaqda əyləşən sərnişinləri xəbərdar edin.
- Ayaqqabını çıxartmaq Sizin qanuni haqqınızdır, lakin bəzi hallarda bunu etməmək daha yaxşıdır.
- Uşaqlarınızın davranışlarına nəzarət edin.
- Yuxarı rəflərdəki ümumi boş yeri nəzakətsiz şəkildə tutmayın.
- Təyyarə bələdçilərinin göstərişlərinə əməl edin.
- Ayaqyoluna getməyi əvvəlcədən planlaşdırın.

## Məlumat üçün:

Türkiyə və Azərbaycan hökumətləri arasında imzalanaraq təsdiq edilmiş Şəxsiyyət vəsiqəsi ilə səyahət haqqında Protokola əsasən, 1 aprel 2021-ci ildən etibarən iki ölkənin vətəndaşları yalnız yeni nəsil şəxsiyyət vəsiqəsi ilə birbaşa səfərlər edə bilərlər.

## Bakıda faydalı qısa nömrələr

| | |
|---|---|
| Yanğınsöndürmə xidməti | **101** |
| Polis | **102** |
| Təcili tibbi yardım | **103** |
| Bakı şəhəri məlumat bürosu | **109** |
| Fövqəladə Hallar | **112** |
| Hava limanının məlumat bürosu | **(012) 497 27 27** |
| Dəmiryol vağzalının məlumat bürosu | **(012) 499 45 15** |
| Avtovağzalın məlumat bürosu | **(012) 499 70 38/39** |
| Azərbaycanın telefon kodu | **+994** |

## Əcnəbilərin olduğu yer üzrə qeydiyyatdan keçməsi:

Azərbaycanda 15 gündən artıq müvəqqəti qalan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçmək üçün əcnəbi ölkəyə gəldiyi gündən etibarən 15 gün ərzində Dövlət Miqrasiya Xidmətinin rəsmi saytının elektron xidmətlər bölməsi, elektron hökumət portalı və ya (qeydiyyat@migration.gov.az) elektron poçt vasitəsilə, həmçinin birbaşa regional miqrasiya idarələrinə və "ASAN Xidmət" mərkəzlərinə elektron qaydada müraciət etməlidir.

Tələb olunan sənədlər:
-ərizə-anket;
-əcnəbinin pasportunun (digər sərhədkeçmə sənədinin) surəti (viza səhifəsi və ölkəyə son girişi göstərilmiş səhifələr daxil olmaqla).
Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınmalarına görə dövlət rüsumu tutulmur.



## Zirə ekoparkı

Ekoloji parkın mühüm xüsusiyyətlərindən biri burada 25 növ ekzotik quşların olmasıdır. Ərazidə kiçik su hövzələri – süni göllər yaradılıb. Fəvvarələr meydançası parka xüsusi gözəllik verir. Pilləli formada inşa olunan meydançada rəngarəng işıqlandırma sistemi quraşdırılmışdır. Ekopark Zirə qəsəbəsində yerləşir.



## Mərkəzi Park

Bakının Mərkəzi Parkı istirahət və əyləncə üçün əla şəraiti olan yaşıl ərazidir. Park yerüstü piyada keçidləri vasitəsilə bir-biri ilə birləşən bir neçə hissədən ibarətdir. Parkın ərazisində bütün yaş qruplarından olan insanlar üçün nəzərdə tutulmuş 7 istirahət və oyun meydançası mövcuddur. Mərkəzi Park Füzuli və Abdulla Şaiq küçələrinin kəsişməsində yerləşir.



## Botanika bağı

Mərkəzdən bir qədər aralıda, Badamdar magistral yolunda yerləşən bağ nadir ağac və bitki növləri ilə məşhurdur. Əgər "sıx ağaclıq sahəyə" daxil olsanız, demək olar ki, özünüzü həqiqi meşədə olduğu kimi hiss edə bilərsiniz. Botanika bağına ən yaxın metro stansiyaları “İçərişəhər” və “Elmlər Akademiyası”dır, buradan avtobus və taksi ilə getmək mümkündür.


Boyukshor Lake
Heydar Mosque
Heydar Aliyev International Airport
H1
Atashgah
Baku Olympic Stadium
Boyukshor Boulevard
Avtovaghzal
Central Bus Station
Nasimi
Azadlig
Darnagul
Memar Ajami
20 Yanvar
Inshaatchilar
Elmlar Akademiyasi
Nizami
28 May
Jafar Jabbarli
Koroghlu
Gara Garayev
Neftchilar
Ulduz
Bakmil
Nariman Narimanov
Ganjlik
Khalglar Dostlughu
Akhmedli
Hazi Aslanov
Juma Mosque
Khatai
Sahil
Icharisheher
Baku Zoo
Heydar Aliyev Center
The Officers Park
Heydar Aliyev Park
Central Railway Station
Central Park
Museum of Modern Art
Ferry Terminal
Museum of Literature
Gosha Gala Gapisi
Taza Pir Mosque
Palace of Shirvanshahs
Baku Boulevard
White City Boulevard
Museum of Miniature Books
Museum of Musical Culture
Philharmonic Garden
Maiden's Tower
Mini Venice
Baku Bay
Funicular
Carpet Museum
Flame Towers
Upland Park
Botanical Garden
Mosque of the Martyrs
Sabayil Castle
Panorama Ferris wheel
TV Tower
Crystal Hall
Bibi-Heybat Mosque
Zira Eco Park
Buta Airways

# “AZAL Miles” bonus proqramı

“AZAL Miles” bonus proqramı “Buta Airways” və “Azərbaycan Hava Yolları” (AZAL) aviaşirkətlərinin uçuşlarına şamil olunur.

Toplanılmış Səyahət balları mükafatlandırıcı aviabiletlərin əldə olunması və AZAL-ın uçuşlarında xidmət sinfinin artırılması üçün istifadə oluna bilər.

“AZAL Miles” proqramı, proqrama üzv olmaq, balların toplanılma və istifadə qaydaları haqqında daha ətraflı məlumatı www.miles.azal.az saytında əldə etmək olar.

Qeyd edək ki, proqrama üzv olduqdan sonra, son altı ay ərzində həyata keçirilən uçuşlara görə Səyahət ballarını şəxsi hesabınıza əlavə edə bilərsiniz.

“AZAL Miles” bonus proqramına qoşulun, tez-tez, daha sərfəli və rahat səyahətdən faydalanın.



AZAL Miles

*Hər uçuş üçün bal qazanın və tez-tez uçan sərnişinlər üçün nəzərdə tutulan AZAL Miles proqramında iştirak edərək daha çox səyahət edin!*

GET IT ON Google Play

Download on the App Store

## QEYDİYYATDAN NECƏ KEÇMƏK OLAR?

- Aviaşirkətin www.azal.az rəsmi veb-saytı vasitəsilə
- Təyyarədə anketi doldurmaqla

## ŞƏXSİ KABİNETİNİZDƏ SİZ

- Balları yoxlaya
- AZAL Miles Support xidməti ilə əlaqə saxlaya
- Şəxsi məlumatlarınızda dəyişiklik edə bilərsiniz

## BALLARI NECƏ TOPLAMAQ OLAR?

- "Azərbaycan Hava Yolları" və "Buta Airways" aviaşirkətləri ilə səyahət etməklə
- Müştərək bank kartlarından istifadə edərək səyahət və alış-veriş etməklə
- AZAL Miles aksiyalarında iştirak edərək əlavə ballar toplamaqla
- Tərəfdaşlarımızın xidmətlərindən istifadə etməklə

## BALLARDAN NECƏ İSTİFADƏ ETMƏK OLAR?

- Balları "Azərbaycan Hava Yolları" aviaşirkətinin reyslərinə mükafatlandırıcı aviabiletlərlə dəyişə bilərsiniz
- Xidmət sinfini Ekonom sinifdən Komfort xidmət sinfinə, Biznes sinifdən VIP-kluba qədər yüksəldə bilərsiniz

# İMTİYAZLAR

*Daha çox səyahət edin, üzv statusunuzu yeniləyin, Qızıl və Platinum statusunun unikal imtiyazlarını əldə edin*

| | Classic<br>sizin birinci kartınız | Gold<br>8000 baldan başlayaraq | Platinum<br>20000 baldan başlayaraq |
|---|---|---|---|
| Əsas tarifin hər bir avrosuna görə balların sayı | 1 | 2 | 3 |
| Doğum ayında ikiqat ballar | ✓ | ✓ | ✓ |
| Ailə kabineti | ✓ | ✓ | ✓ |
| Mükafatlandırıcı aviabiletin dəyişdirilməsi (uçuşdan əvvəl) | 50 avro | ödənişsiz | ödənişsiz |
| Mükafatlandırıcı aviabiletin dəyişdirilməsi (uçuşdan sonra) | 75 avro | 75 avro | 75 avro |
| Təxsis üçün növbədə prioritet status | ✗ | ✓ | ✓ |
| Biznes zallarına ödənişsiz giriş (yalnız Bakı Aeroportunda) | ✗ | ✓ | ✓ |
| Biznes zallarına ödənişsiz giriş ( ölkənin bütün beynəlxalq hava limanlarında) | ✗ | ✗ | ✓ |
| 23 kq-a qədər əlavə baqaj | ödənişli | ödənişsiz | ödənişsiz |
| Növbəsiz qeydiyyat və minik imkanı | ✗ | ✓ | ✓ |
| Hava limanında qarşılanma və müşayiət | ✗ | ✗ | ✓ |

Əlavə məlumat üçün: + 99412 598 88 80 www.miles.azal.az azalmiles@azal.az

# UÇUŞ XƏRİTƏSİ



## “Buta Airways” in donanması

“Buta Airways”in hava gəmiləri parkına müasir Embraer təyyarələri daxildir. Bu yeni və etibarlı təyyarələr rahat oturacaqlar, ayaqlar üçün geniş sahə, eləcə də əl yükü üçün böyük rəflərlə təchiz edilmişdir.

# Embraer 190




Sürət - 870 km/s

106 Sərnişin

Uçuş məsafəsi - 4400 km




### Təyyarə salonunda prioritet yerlər

| Qiymət | Yerlər |
|---|---|
| € 25.00 | Birinci sırada yerler |
| € 15.00 | Qabaq sıralarda yerlər |
| € 25.00 | Ayaqlar üçün daha geniş yerlər |
| € 3.00 | Standart yerlər |

## "Azərbaycan Hava Yolları" QSC-nin Donanması

**Boeing 787-8 Dreamliner**




**Boeing 757-200**




**Boeing 767-300ER**




**Airbus A340-542**




**Airbus 320-214**



**Airbus 319-111**




PREMIUM BANK
VISA
GÜNDƏLİK ALIŞ-VERİŞ VƏ XİDMƏTLƏRİN HAQQINI VISA SIGNATURE MILES KARTI İLƏ ÖDƏYİN VƏ AZƏRBAYCAN HAVA YOLLARI AVİAŞİRKƏTİ İLƏ PULSUZ UÇUŞA YOLLANIN
VISA SIGNATURE MILES
PREMIUM BANK
AZAL Miles
0000 0000 0000 0000
4662
VALİD FROM 00/00
UNTIL END 00/00
CARDHOLDER NAME
VISA Signature
LOUNGE KEY
VISA FAST LINE
TRAVEL INSURANCE
VISA SIGNATURE CONCIERGE
DIGITAL CONCIERGE (CHATBOT)
GLOBAL CUSTOMER ASSISTANCE
DISCOUNTS AND SPECIAL OFFERS
(012) 931
www.premiumbank.az